**Almaniya Federativ Respublikasının Köln şəhərində "Statistika təşkilatlarında keyfiyyətin idarə olunması" mövzusunda təlim kursu təşkil edilmişdir**



Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Keyfiyyətin idarə olunması və informasiya texnologiyaları şöbəsinin müdiri Qasım Əliyev, sektor müdiri Vüqar Məmmədəlizadə və məsləhətçisi Aynur Sultanova 2013-cü ilin 17-20 iyun tarixlərində Avropa Qonşuluq Siyasəti-Şərq regionu çərşivəsində (ENP-EAST) Avropa İttifaqının Statistika İdarəsinin (bundan sonra Avrostat) təşkilatçılığı ilə Almaniya Federativ Respublikasının Köln şəhərində "Statistika təşkilatlarında keyfiyyətin idarə olunması" mövzusunda təşkil edilmiş təlim kursunda iştirak etmişlər.

Təlimin təşkilində Avrostata texniki dəstək: məruzəçilərin təmin edilməsi, kursun məzmunu və digər məsələlərlə bağlı təchizat ADETEF/ICON konsorsiumu tərəfindən göstərilmişdir.

Tədbirin keçirilməsində əsas məqsəd Avropa Statistika Sistemində statistik istehsalın həmahəngliyini təmin etmək məqsədilə Avropa konteksti çərçivəsində keyfiyyət təminatının ümumi qəbul edilmiş və geniş istifadə olunan metodları üzərinə diqqəti cəlb etməkdən ibarət olmuşdur.

Kursda Azərbaycan, Gürcüstan, Moldova, Ukrayna, Belarus, Ermənistan, Özbəkistan, Türkmənistan və Qırğızıstan statistika xidmətlərinin mütəxəssislərindən ibarət olmaqla 20 nümayəndə iştirakçı qismində, Avrostatın, ICON və ADETEF təşkilatlarının nümayəndələri isə müşahidəçi qismində iştirak etmişlər.

Ümumilikdə 4 gün davam edən təlimdə məruzəçilər statistikada keyfiyyətin tərifi; keyfiyyətin idarə olunması və keyfiyyət sistemləri; istifadəçi tələbatları; məhsulun keyfiyyətinin ölçülməsi; prosesin keyfiyyəti; prosesin keyfiyyət göstəriciləri; prosesin keyfiyyətinə nəzarət və standartlaşdırılması vasitələri; keyfiyyət məruzəsi; işçi heyətinin motivasiyası və onun işə cəlb edilməsi; məhsulun keyfiyyətinin qiymətləndirilməsi; strateji idarəetmə və siyasət; keyfiyyət sənədləşdirilməsi, qiymətləndirilməsi və məruzəsi üzrə İstatın təcrübəsi məsələlərini əhatə etməklə geniş tədimatlarla çıxış etmişlər.

Tədbir kurs iştirakçılarına dinləmələrdə iştiraklarına görə sertifikatların verilməsi ilə başa çatmışdır.